*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 19 oktyabr 2019-cu il № 81 (2398) Qiyməti 30 qəpik


# Azərbaycan Prezidenti: Müqəddəs məscidləri dağıdan Ermənistan müsəlman ölkələri ilə dost ola bilməz




*Ermənistan çalışır ki, müsəlman ölkələri ilə sıx əməkdaşlıq qursun. Ancaq dünya müsəlmanları üçün müqəddəs olan məscidləri dağıdan Ermənistan müsəlman ölkələri ilə dost ola bilməz. Dinimizə qarşı edilən bu vandallıq Ermənistanın islamofob xislətini nümayiş etdirir. AZƏRTAC xəbər verir ki, bunu Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Bakıda keçirilən VII Zirvə Görüşündə deyib.*

Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının dörd qətnamə qəbul etdiyini xatırladan dövlətimizin başçısı deyib: "Azərbaycanın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Ermənistanın destruktiv siyasətinə görə irəliləyiş yoxdur. Ermənistan 30 ilə yaxındır ki, beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirir. İşğal olunmuş ərazilərdə etnik təmizləmə siyasəti aparılıb, bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Həmin ərazilərdə Azərbaycan xalqına məxsus tarixi-mədəni irs, İslam abidələri və məscidlərimiz dağıdılıb və məhv edilib.

Ermənistan çalışır ki, müsəlman ölkələri ilə sıx əməkdaşlıq qursun. Ancaq dünya müsəlmanları üçün müqəddəs olan məscidləri dağıdan Ermənistan müsəlman ölkələri ilə dost ola bilməz. Dinimizə qarşı edilən bu vandallıq Ermənistanın islamofob xislətini nümayiş etdirir.

Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi qəbul edilib. Bu qətnamələrdə işğalçı qüvvələrin Azərbaycan torpaqlarından qeyd-şərtsiz və tam çıxarılması birmənalı olaraq tələb edilir. Eyni zamanda, Qoşulmama Hərəkatı, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, NATO, Avropa Parlamenti, Avropa Şurası və digər təşkilatlar buna oxşar qərar və qətnamələr qəbul ediblər. Ermənistan bu qətnamə və qərarların tələblərinə məhəl qoymur, beynəlxalq hüquqi öhdəliklərinin icrasından boyun qaçırır."

Prezident İlham Əliyev, həmçinin bildirib: "Dağlıq Qarabağ Azərbaycanın tarixi və əzəli torpağıdır, Azərbaycanın ayrılmaz hissəsidir. Münaqişə beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşlərinin yekun bəyanatlarında da dövlətlərin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına dəstək davamlı olaraq təsbit edilir. Fürsətdən istifadə edərək, mən Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində ədalətli həllini dəstəkləyən tərəfdaşlarımıza təşəkkür edirəm.

Azərbaycan bu gündən Türk Şurasına sədrliyi öz üzərinə götürür. Sizi əmin edirəm ki, Azərbaycan təşkilata sədrliyi dövründə ölkələrimiz arasında həm ikitərəfli, həm də çoxtərəfli səviyyədə əməkdaşlığın daha da dərinləşməsi istiqamətində səylərini davam etdirəcək".

**AZƏRTAC-ın materialları əsasında**

## "Soyqırımı görmək istəyən varsa, Dağlıq Qarabağda baş verənlərə baxsın"

Türkiyə Böyük Millət Məclisində hakim Ədalət və İnkişaf Partiyasının (AKP) qrup toplantısında çıxış edən Türkiyə Prezidenti, AKP sədri Rəcəb Tayyib Ərdoğan ölkəsinə və xalqına qarşı ayrı-seçkilik edən qüvvələri kəskin qınayıb.

AZƏRTAC xəbər verir ki, Türkiyə Silahlı Qüvvələrinin Suriya ərazisində həyata keçirdiyi antiterror əməliyyatının mahiyyətindən bəhs edən Prezident diqqətə çatdırıb ki, türklər tarixin heç bir dövründə dinc əhaliyə qarşı zorakılıq həyata keçirməyib. "Soyqırımı görmək istəyən varsa, Dağlıq Qarabağda baş verənlərə baxsın", - deyən Prezident dünyanın ayrı-ayrı yerlərində müsəlmanlara və türklərə qarşı törədilən cinayətləri xatırladıb.

## "Türk Şurasının Bakıda keçirilən Zirvə Görüşü tarixi əhəmiyyətə malikdir"

Türkiyə Böyük Millət Məclisində hakim Ədalət və İnkişaf Partiyasının (AKP) qrup toplantısı keçirilib. AZƏRTAC xəbər verir ki, Türkiyə Prezidenti, AKP sədri Rəcəb Tayyib Ərdoğan toplantıda çıxış edib.

Türkiyənin daxili və xarici siyasəti ilə bağlı bəzi məqamlara toxunan Prezident Rəcəb Tayyib Ərdoğan çıxışında oktyabrın 15-də Bakıda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) VII Zirvə Görüşünə geniş yer ayırıb. Prezident diqqətə çatdırıb ki, Türk Şurasının Bakıda keçirilən Zirvə Görüşü təşkilatın coğrafiyasının genişlənməsi və qəbul etdiyi mühüm qərarlar baxımından tarixi əhəmiyyətə malikdir.

Gündəlikdə olan aktual mövzular barədə fikir və mülahizələrini bölüşən dövlət başçısı Suriya böhranı, o cümlədən Türkiyə Silahlı Qüvvələrinin həyata keçirdiyi "Sülh çeşməsi" antiterror əməliyyatının uğurla davam etdirildiyini diqqətə çatdıraraq vurğulayıb ki, terrorçuların kökü kəsilənə qədər bu mübarizə davam etdiriləcək.

# Müdafiə naziri NATO/SHAPE Tərəfdaşlıq İdarəsinin rəisi ilə görüşüb



Oktyabrın 16-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə "NATO günləri" çərçivəsində səfərdə olan Alyansın Müttəfiq Qüvvələrin Avropadakı Ali Baş Qərargahında (SHAPE) Tərəfdaşlıq İdarəsinin rəisi kontr-admiral Bülent Turanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə naziri Azərbaycanın NATO ilə tərəfdaşlıq əlaqələrinin çoxşaxəli olduğunu və bu tərəfdaşlığın daim inkişaf etdirilməsinə böyük önəm verildiyini bildirib.

Müdafiə naziri NATO-nun ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə verdiyi siyasi dəstəyi xatırladaraq bunun ümumilikdə Avroatlantik məkanda təhlükəsizliyin möhkəmlənməsinə, eləcə də regional sülhə və sabitliyə xidmət etdiyini nəzərə çatdırıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, kontr-admiral B.Turan da öz növbəsində Azərbaycan-NATO əlaqələrini yüksək qiymətləndirərək sülhməramlılarımızın Əfqanıstanda keçirilən əməliyyatlar çərçivəsində beynəlxalq təhlükəsizliyə verdiyi töhfəni, Alyansın bir çox proqramlarında Azərbaycan hərbçilərinin fəal iştirakını, habelə NATO-nun müxtəlif qərargahlarında xidmət edən zabitlərimizin hazırlığını xüsusi vurğulayıb. B.Turan, həmçinin "NATO günləri"nin ölkəmizdə yüksək səviyyədə təşkili və keçirilməsinə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib.

Görüşdə Azərbaycan ilə NATO arasında həyata keçirilən əməkdaşlıq proqramları çərçivəsində əməliyyat hazırlığı, təlimlərin keçirilməsi, hərbi təhsilin inkişafı, qüvvələr arasında qarşılıqlı uzlaşmanın əldə olunması məsələləri müzakirə edilib, həmçinin əməkdaşlığın inkişaf perspektivləri və NATO-nun İraqda həyata keçirdiyi missiyaya ölkəmizin mümkün töhfəsi barədə ətraflı fikir mübadiləsi aparılıb.

# Müdafiə naziri ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə görüşüb



*Oktyabrın 17-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan ATƏT-in Minsk Qrupunun həmsədrləri İqor Popov (Rusiya), Endrü Şofer (ABŞ), Stefan Viskonti (Fransa) və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik ilə görüşüb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə qoşunların təmas xəttində, Ermənistan-Azərbaycan dövlət sərhədi, xüsusilə cəbhənin Qazax istiqamətindəki son vəziyyət və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri müzakirə edilib.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Azərbaycanın Müdafiə naziri Çinə işgüzar səfərə gedəcək

***17 oktyabr 2019-cu il.***

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Çin Xalq Respublikası Dövlət Şurasının üzvü, ÇXR Milli Müdafiə naziri general-polkovnik Vey Fenxenin dəvəti ilə Pekin şəhərinə gedəcək.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, işgüzar səfər çərçivəsində Müdafiə nazirinin ÇXR-nın hərbi-siyasi rəhbərliyinin rəsmiləri ilə görüşləri planlaşdırılır.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***17 oktyabr 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 millimetrlik minaatandan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində və adsız yüksəkliklərdə, Berd rayonunun Ayqepar kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Cəvahirli, Acarlı, Mərzili, Füzuli rayonunun Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***18 oktyabr 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Sarıcalı, Mərzili, Füzuli rayonunun Kürdlər kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# HDQ-də taktiki təlim keçirilir



Azərbaycanın Xəzər dənizindəki ərazi sularında enerji infrastrukturunun mühafizəsi üzrə Hərbi Dəniz Qüvvələrinin (HDQ) taktiki təlimi keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, gəmi taktiki qruplarının qarşılıqlı fəaliyyətdə döyüş əməliyyatlarının planlaşdırılması və aparılması məsələlərinin işlənilməsi üzrə keçirilən təlimin məqsədi gəmi birləşmələri tərkibində birgə fəaliyyətin təşkilidir.

Təlimdə qüvvələrin idarəolunması üzrə komandirlərin və qərargahların bacarıqları təkmilləşdirilir, gəmi birləşmələrinin döyüş tapşırıqlarının yerinə yetirilməsi hazırlıqları yoxlanılır.

# Azərbaycan XİN Minsk qrupu həmsədrlərinin bölgəyə səfər marşrutuna münasibət bildirib

Azərbaycanın Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva bölgəyə səfər edən ATƏT-in Minsk Qrupu həmsədrlərinin marşrutunun Yerevandan Qarabağa və yalnız ondan sonra Bakıya keçməsi ilə bağlı KİV-in suallarını cavablandırıb.

AZƏRTAC xəbər verir ki, "bu, münaqişənin hər iki tərəfi ilə razılaşdırılıbmı? Yoxsa o, həmsədrlərin özlərinin qərarıdır və Azərbaycanın ərazi bütövlüyünə hörmətsizlik kimi qiymətləndirilə bilərmi" suallarını cavabladıran Leyla Abdullayeva deyib: "Bildiyiniz kimi, ATƏT-in Minsk Qrupunun həmsədrləri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün vasitəçilik fəaliyyətlərini mövcud mandat əsasında həyata keçirirlər və həmin mandata dair Azərbaycan tərəfinin də razılığı vardır. ATƏT-in Minsk Qrupu həmsədrlərinin hazırkı səfəri bu mandatın icrası çərçivəsində onların regionumuza növbəti gəlişidir. Qeyd etmək istərdik ki, həmsədrlər səfərlərini həyata keçirərkən, ənənəvi olaraq Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin həm erməni, həm də azərbaycanlı icmaları ilə əlaqə saxlayır. Bu cür səfərlər bundan əvvəl də dəfələrlə həyata keçirilib və tərəfimizdən münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycan Respublikasının ərazi bütövlüyünə riayət edilməsi çərçivəsində həll edilməsi istiqamətində görülən işlər kimi qiymətləndirilir".

Döyüş hazırlığı

# Artilleriyaçılarımız döyüş əmrinə hər an hazırdırlar

*Artilleriyanın döyüşlərdə hansı rola malik olduğunu və hansı gücü nümayiş etdirdiyini şərh etməyə ehtiyac yoxdur. Artilleriya ilə bağlı söylənilən ifadələr zaman-zaman hərb meydanlarında sınaqdan çıxaraq təsdiqini tapıb. Düşmənin strateji hədəflərinin uzaq məsafədən məhv edilməsində topçuların yüksək döyüş bacarığı mühüm əhəmiyyət kəsb edir. Bu gün Azərbaycan Ordusunda artilleriya qüvvələrinə xüsusi önəm verilir və qoşun xidmətində bu sahənin daha da gücləndirilməsinə qayğı və diqqət göstərilir. Təbii ki, burada şəxsi heyətin komplektləşdirilməsində zabit və əsgərlərin vəzifə bölgüsünün düzgün aparılmasından çox şey asılıdır. Artilleriyanın yeni texnika, müasir silah-sursatla təmin olunması da həlledici amillərdən biridir. Müasir texnika ilə yanaşı, orduya yeni çağırılan gənclərin döyüş bacarıqlarının təkmilləşdirilməsinə və onlara hərbi vərdişlərin düzgün aşılanmasına ciddi önəm verilir.*

## Ali Baş Komandan İlham ƏLİYEV:

*Azərbaycan Ordusunun peşəkarlığı, döyüş qabiliyyəti artır, Azərbaycan əsgər, gizir və zabitləri Vətənə ləyaqətlə xidmət edirlər, öz Vətəninə sadiqdirlər. Bizim bütün hərbi hissələrimizdə, xüsusilə ön cəbhədə yerləşən hərbi hissələrdə ruh yüksəkliyi var və Azərbaycan əsgərinin vətənpərvərlik hissləri çox yüksəkdir, möhkəmdir. Biz bundan sonra da öz döyüş potensialımızı artıracağıq. Hazırda Azərbaycan Ordusunun maddi-texniki təchizatı ən yüksək səviyyədədir. Son vaxtlar əldə etdiyimiz silah, texnika deməyə əsas verir ki, biz istənilən vəzifəni icra edə bilərik.*



Cəbhə xəttində yerləşən "N" hərbi hissəsində bütün bu deyilənlərin bir daha canlı şahidi olduq. Divizionun təlim meydanındakı canlanma gözümüzdən yayınmır. Şəxsi heyət növbəti səhra çıxışına hazırlaşırdı. Onlar ərazini necə qoruyacaqlarını, bununla da nəyə qadir olduqlarını göstərəcəkdilər.

Hərbi hissənin zabiti Anar Baxışov batareyaların tədris planına uyğun olaraq şəxsi heyətin dərsin mövzusunu mənimsəmək üçün praktik məşğələlərə toplaşdığını dedi: "Azərbaycan Ordusunda döyüş hazırlığının daima yüksəldilməsi, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi qarşımızda dayanan başlıca vəzifələrdir. Ordunun döyüş potensialında xüsusi çəkisi olan artilleriya bölmələrimiz peşəkarlığını gündən-günə artırır. Tarix boyu müharibə meydanlarında öz sözlərini demiş topçularımızın qəhrəmanlıq ənənələrini bu gün uğurla davam etdirən müasir Azərbaycan Ordusunun artilleriyaçıları döyüş hazırlığı sahəsində yeni-yeni nailiyyətlər qazanırlar. Hər zaman qürurla xatırladığımız tam artilleriya generalları Səməd bəy Mehmandarov və Əlağa Şıxlinski kimi sərkərdələrimizin adı Azərbaycan hərb tarixinin səhifələrinə qızıl hərflərlə həkk olunub. Dünya şöhrətli sərkərdələrimizin davamçıları olan artilleriyaçı zabit və əsgərlərimiz Vətənimizə şərəflə xidmət edir, peşəkarlıqlarını gündən-günə artırmaqla, Ali Baş Komandanın döyüş əmrinə hər an hazırdırlar."



Budur, şəxsi heyət döyüş hazırlığı məşğələsində peşə vərdişlərini artırmaq üçün toplanıb. Hər bir heyət nəfəri öz vəzifəsinin öhdəsindən bacarıqla gəlməyə və "düşmən" üzərinə atılacaq mərmilərin istiqamətini xüsusi cihazın vasitəsilə müəyyənləşdirməyə çalışır. Təlim-məşq zamanı komandirin verdiyi tapşırıqlar şəxsi heyət tərəfindən dəqiqliklə yerinə yetirilirdi. Onlar komandirin göstərişlərinə düzgün əməl etməklə, döyüş vərdişlərini daha da möhkəmləndirirdilər.

- Döyüş əmri verilərsə, topçular komandirlərin tapşırıqlarını əzmlə yerinə yetirməyə qadirdirlər, - deyə təlim-məşq toplantısının cavabdeh zabitlərindən biri Ləyaqət Kazımlı bildirdi. "Hazırda artilleriya bölməsində atışın idarə olunması məşğələsi keçirilir. Təlim-məşqlərdə müxtəlif mövzularda peşə vərdişləri qazanılır. Bugünkü dərsin keçirilməsində əsas məqsəd isə düşmənin döyüş zamanı canlı qüvvə və atəş vasitələrini, eləcə də döyüş texnikalarını susdurmaq, onları məhv etmək mövzusunu əhatə etməklə, şəxsi heyətin bilik və bacarığını artırmaqdır."

Öyrənirəm ki, artilleriya divizionunun zabiti Ləyaqət Kazımlı Aprel döyüşlərinin fəal iştirakçısı olub. O, nümunəvi xidmətinə görə dəfələrlə fəxri fərmanlara layiq görülüb. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini artilleriya ixtisası üzrə bitirib.

Təlim-məşq davam edir. Topçular komandirin əmri ilə tez bir zamanda artilleriya silahını döyüşə hazır vəziyyətə gətirirlər. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Əliqismət Səfərlinin zəruri olan əmr və tapşırıqlarını əsgərlər Bəhrəm Ağazadə, Murad Məmmədov, Yusif Məhərrəmov cəld və çevik yerinə yetirdilər. Onlar lazımi cihaz və qurğuları, ümumilikdə texnikanı döyüş vəziyyətinə gətirdikdən sonra komandirə raport verdilər.

Təlim-məşq zamanı sürücü müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş



Elşən Adilovun, əsgərlər Alı Məmmədlinin, Seyran Hacıyevin verilən hər bir əmr və tapşırığı tez və dəqiqliklə yerinə yetirməsi diqqətimizdən yayınmır. Əminliklə qeyd etmək olar ki, bu onların daima öz üzərlərində çalışmalarının göstəricisiydi.

Baş leytenant Amil Əliyev mütəmadi olaraq keçirilən təlimlərdə bütün heyət üzvlərinin verilən tapşırıqları ən yüksək səviyyədə yerinə yetirdiyini dedi: "Təlim zamanı onların cəld və çevik hərəkətləri bizə əminliklə onu deməyə əsas verir ki, belə əsgərlərlə döyüş meydanlarında yalnız qələbə qazanmaq olar. Bütün bölmələrdə topçularımızın döyüş hazırlığı ən yüksək səviyyədədir. Bizim ən ali məqsədimiz düşmən işğalında olan torpaqlarımızın tezliklə azadlığına nail olmaqdır."

Baş leytenant Amil Əliyev Aprel döyüşlərinin iştirakçısı olduğunu və 2017-ci ildə Müdafiə Nazirliyinin artilleriya bölmələri arasında keçirilən yarışlarda Silahlı Qüvvələr üzrə 2-ci yeri qazandığını da diqqətimizə çatdırdı.

Əsgərlər Nicat Mikayılov, Əli Ağasıyev, Vasif Muradov və İsa Rzayev praktiki məşğələdə xüsusi bacarıq nümayiş etdirərək, topçularımızın döyüşə hər an hazır olduqlarını bir daha təsdiqlədilər.

Baş leytenant Nazim Kazımov Azərbaycan Ordusunda artilleriya qüvvələrinin xüsusi yeri olduğunu dedi: "Bu gün ordumuzun silahlanmasına ən müasir artilleriya silahları daxil edilir. Ordumuz çox güclüdür. Şəxsi heyətin döyüş bacarığı günbəgün artır. Keçirilən təlimlərdə şəxsi heyət öz döyüş bacarığını nümayiş etdirir. Bütün bunlar bizə onu deməyə əsas verir ki, ordumuz qısa vaxtda torpaqlarımızı düşmən tapdağından azad etməyə hər an hazırdır."

Azərbaycanımızın ərazi bütövlüyünün bərpa olunması təkcə ordumuzun əsgər və zabitlərinin deyil, bütün ölkə vətəndaşının qarşısında dayanan əsas vəzifədir. İnanırıq ki, döyüş qüdrətini artıran Azərbaycan Ordusu Ali Baş Komandanın əmrini istənilən vaxt yerinə yetirməyə hazırdır.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Rəşad ƏMRAHOVUNDUR**

AZƏRBAYCAN ORDUSU

Azərbaycanın dövlət müstəqilliyinin bərpasından 28 il keçir

# “Azərbaycanın dövlət müstəqilliyi əbədidir, daimidir, dönməzdir”

*Suveren dövlət olmaqla öz müqəddəratını, taleyini müstəqil təyin etmək bir xalqın əldə edə biləcəyi ən böyük nailiyyətdir. Bir millətin qazana biləcəyi digər nailiyyətlər yalnız müstəqil dövlətə malik olduqda mümkündür. Beş min illik dövlətçilik tarixinə malik olan Azərbaycan əsrlər boyu torpağına göz dikən, azadlığını təhdid edən, ona düşmən kəsilən yadellilərə qarşı mübarizələr aparıb. Mübarizə əzmi bu və ya digər səbəbdən qələbə ilə nəticələnmir. Böyük xalq odur ki, məğlubiyyəti gələcək qələbələr üçün başlanğıc bilsin. Onda gələcək mübarizələr uğur gətirir. Xalqımız belə xalq olub...*



1918-ci ildə müsəlman Şərqində ilk demokratik, dünyəvi dövlət quran Azərbaycanın dövlət müstəqilliyinə rus imperiyası 1920-ci ildə son qoydu. Bu müstəqillik uzun sürmədi. Tarix üçün çox qısa bir zaman olsa da, əhəmiyyəti baxımından xalqımızın yaddaşında tarixləşdi. Mövcud olduğu müddət ərzində Azərbaycan Xalq Cümhuriyyəti bütün vətəndaşlarını konstitusion hüquqlarla təmin etmiş, daxili quruluşundan asılı olmayaraq, bütün ölkələrlə münasibətləri faydalılıq əsasında yaratmağa çalışmışdır.

Cümhuriyyətin demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə və s. sahələrdə atdığı addımları davam və bərpa etdirmək uğrunda mübarizə qətiyyətlə davam etdi.

1991-ci ildə yenidən əldə etdiyimiz müstəqillik xalqımızın ötən əsrin əvvəllərində yaşadığı şərəfli tarixin şüurlarda yaratdığı milli oyanışın, azadlıq eşqinin bəhrəsi idi. Həmin il avqustun 30-da Azərbaycanın müstəqilliyi haqqında bəyannamə, oktyabrın 18-də isə Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul olundu. Bununla da Azərbaycan müstəqil, demokratik və dünyəvi bir dövlət kimi mövcudluğunu yenidən dünyaya bəyan etdi. Dövlət müstəqilliyimizi dünya ictimaiyyəti tanıdı və qəbul etdi.

Həmin tarixi və möhtəşəm gündən 28 il keçir. Bu müddət ərzində Azərbaycan bütün sahələrdə misli görünməmiş inkişafa, tərəqqiyə nail olsa da, əldə edilən uğurlar asanlıqla başa gəlmədi. Müstəqilliyimizin ilk illərində xalqımız, sözün həqiqi mənasında, ağır, məşəqqətli günlər yaşadı. 1988-ci ildən Ermənistanın Azərbaycana qarşı torpaq iddiası ilə başlayan münaqişə ölkəmizdə vəziyyəti son dərəcə ağırlaşdırdı və elan edilmədən başlayan müharibəyə səbəb oldu. Dağlıq Qarabağ, həmçinin sərhədyanı rayonlar ermənilər tərəfindən işğal olundu. Azərbaycan bir tərəfdən müstəqilliyimizin başı üstünü almış real təhlükəni sovuşdurmaq, digər tərəfdən torpaqlarımızı müdafiə etmək, ölkəmizin ərazi bütövlüyünü qorumaq, işğal olunmuş torpaqlarımızı azad etmək kimi tarixi bir sınaqla üzləşmişdi.

Dövlətçiliyimiz məhv olmaq təhlükəsi ilə üzləşdiyi bir zamanda respublikamızın o zamankı rəhbərləri belə vacib taleyüklü vəzifələrin öhdəsindən gələ bilmirdi. Belə bir şəraitdə xalq təkidlə böyük tarixi şəxsiyyət Heydər Əliyevi tələb etdi.

Azərbaycanın müstəqil ölkə kimi mövcudluğu, dövlətçiliyin qorunub saxlanılması, möhkəmlənməsi və demokratik prinsiplərin bərqərar olması, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla, sürətlə həyata keçirilməsi məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, bir tərəfdən Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı, digər tərəfdən atəşkəsə nail olmaq üçün bütün siyasi və diplomatik vasitələr işə salındı, bunun da nəticəsində 1994-cü ilin mayında ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olundu.

Azərbaycan daxilində yaranan nisbi sabitlikdən və beynəlxalq aləmdə ölkəmizə artan inam və maraqdan istifadə edərək, 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsinin imzalanması və onun gerçəkləşdirilməsi Heydər Əliyev tərəfindən işlənib hazırlandı ki, bu da müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür.

Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində həyata keçirdiyi planlar artıq İlham Əliyevin rəhbərliyiylə Azərbaycanın gerçəkliyinə çevrilib. Ulu Öndərin fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz bir hissəsini təşkil edir. Hər bir azərbaycanlının taleyində Heydər Əliyev dühasının bir zərrəsi var...

Heydər Əliyev Azərbaycan xalqının xilaskarı, müasir Azərbaycan dövlətinin qurucusudur. Ulu Öndərin zəngin irsi, ideyaları və tövsiyələri müasir cəmiyyətimizin inkişafının nəinki ideya mənbəyidir, həmçinin möhtəşəm səfərbəredici amildir. Ümummilli Liderin təlatümlərdən, təhlükələrdən çıxararaq qurub-yaratdığı Azərbaycan indi Prezident İlham Əliyevin rəhbərliyi altında bütün dünyaya möhtəşəm yüksəliş dinamikası nümayiş etdirir. Ulu Öndərin yaratdığı quruculuq şəraiti müasir Azərbaycanın real siyasi və iqtisadi həyatında təzahür edir. Müstəqilliyin taleyini müəyyənləşdirən əsas amillər qorunub saxlanılır, inkişaf etdirilir.

Dövlətçiliyin möhkəmləndirilməsinə, iqtisadiyyatın inkişafına, milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına eyni dərəcədə diqqət yetirilir.

Azərbaycan bu gün həm siyasi, həm də iqtisadi cəhətdən dünyanın qüdrətli dövlətlərindən birinə çevrilib. İqtisadi inkişaf tempinə görə ölkəmiz nəinki regionda, həm də dünyada lider mövqeyə çatıb.

Müstəqillik gününü qeyd etdiyimiz ərəfədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında dediyi "Qarabağ Azərbaycandır və nida işarəsi" qətiyyəti hər birimizin amalını ifadə edir.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

## Azərbaycan Ordusunda ideoloji iş və mənəvi-psixoloji təminat üzrə zabitlərin peşəkarlıq səviyyəsi yoxlanılıb



*Müdafiə nazirinin təsdiq etdiyi 2019-cu ilin hazırlıq planına əsasən, Azərbaycan Ordusunda ideoloji iş və mənəvi-psixoloji təminat üzrə zabitlərin və psixoloqların toplantısı keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, toplantıda zabitlərin bilik və bacarıqlarının qiymətləndirilməsi məqsədilə hərbi nizamnamələr, rəhbəredici və digər normativ hüquqi sənədləri bilmələri üzrə testlər, fiziki hazırlıqdan məqbullar qəbul edilib, eləcə də döyüş və gündəlik fəaliyyətdə mənəvi-psixoloji təminatın təşkili və aparılmasına dair təlim-metodiki məşğələlər keçirilib.

## Hərbi hissədə kütləvi tərbiyəvi tədbir keçirilib

*2019-cu ilin hazırlıq planına uyğun olaraq, "N" hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlıq kursuna cəlb olunan heyətlə kütləvi tərbiyəvi tədbir keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə Dövlət himni ifa olunub.

Tədbirdə çıxış edənlər kursantlara gələcək xidmətlərin nümunəvi təşkili üçün qanunların və nizamnamələrin tələblərinə əməl olunmasının vacibliyini geniş izah edərək Müdafiə nazirinin əmr və tapşırıqlarını onların diqqətinə çatdırıblar.

## Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nümayəndələri əsgərlərlə görüşüb

Azərbaycan Ordusunda milli-mənəvi dəyərlərimizin təbliği, şəxsi heyətə vətənpərvərlik hisslərinin aşılanması məqsədilə Müdafiə Nazirliyi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birgə tədbirlər həyata keçirir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, birgə tədbirlər planına uyğun olaraq komitə nümayəndələri hərbi hissələrdən birində şəxsi heyətlə görüşüb.

Gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi, onların zərərli vərdişlərdən qorunmasında milli-mənəvi dəyərlərimizin rolu və bu istiqamətdə həyata keçirilən maarifləndirmə tədbirlərinin əhəmiyyəti iştirakçıların diqqətinə çatdırılıb.

Sonda şəxsi heyəti maraqlandıran suallar cavablandırılıb.

# “Əldə etdiyimiz nailiyyətlər bizi qələbəyə daha da yaxınlaşdırır”

*Xalqımızın ümummilli lideri Heydər Əliyev idmanın inkişafına və onun maddi-texniki bazasının genişləndirilməsinə, idmançılara dövlət səviyyəsində qayğı göstərilməsinə xüsusi diqqət yetirmiş, fiziki cəhətdən sağlam gənc nəslin formalaşması məsələsini daim nəzarətdə saxlamışdır. Bu siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev uğurla davam etdirir.*





İdmançılarımız ölkəmizi beynəlxalq turnirlərdə layiqincə təmsil edirlər. Oktyabrın 1-dən 9-dək Gürcüstan Respublikasının Tbilisi şəhərində keçirilən pauerliftinq idman növünün sinədən ağırlıq qaldırma üzrə (Bencpress) dünya çempionatında idmançılarımız birinciliyi qazanaraq, üçrəngli bayrağımızı dalğalandırdılar.

Yarışın iştirakçısı və çempionu olan kapitan Tural Babayev 1990-cı ildən idmanın ağır atletika növü ilə məşğul olur. Ölkə üzrə bir neçə nailiyyətlər əldə edən idmançı hazırda 6 qat respublika çempionudur. O həmçinin gir qaldırma, kounkşin karate, qol güləşi yarışlarında da ordumuzu layiqincə təmsil edib.

"Tbilisi şəhərində keçirilən pauerliftinq üzrə dünya çempionatında üzərimə böyük məsuliyyət düşürdü, - deyə zabit söhbətə başladı. - Mənim çəkimdə - 125 kiloqramda yarışa iki erməni idmançısı da qatılmışdı. Məğlub ola bilməzdim. Bu yarışın birincisi olmağı qarşıma məqsəd qoymuşdum. Polkovnik Sadiq Paşayev və polkovnik-leytenant Zal Nəbiyev mənə öz dəstəklərini əsirgəmirdilər. Onlar öz tövsiyələri ilə ruh yüksəkliyimi və özümə inamı artırdılar. 330 kq-lıq ağırlığı qaldıraraq, pauerliftinq üzrə dünya çempionatının birincisi oldum. Qələbəmə görə üçrəngli bayrağımız dalğalandırıldı, Dövlət himnimiz səsləndirildi. Onu da bildirim ki, erməni idmançısının biri himnimiz səsləndiyi anda pyedestalı tərk etdi. Onun bu hərəkəti təkcə idmançıya yaraşmayan hərəkət kimi deyil, həm də etik normaları pozmaq kimi qiymətləndirildi. Həmin idmançının simasında bütün dünya erməni millətinin nə qədər pis niyyətli, xain olduğunu bir daha gördü".

Kapitan Tural Babayev onu da qeyd etdi ki, idmanın bütün növlərində travma almaq mümkündür. “Ancaq pauerliftinqdə, başlanğıcında travma alaraq, karyeranı başa vura bilərsən. Bu səbəbdən hər an ehtiyatlı olmalısan. Çünki ştanqın əlindən düşməsi arzuolunmaz nəticəyə gətirib çıxarda bilər.”

İdmançılarımız alpinizm üzrə də Azərbaycan Ordusunu beynəlxalq arenada layiqincə təmsil edərək, dünyanın ən uca zirvələrinə ekspedisiyalar təşkil edirlər. Bu yaxınlarda Müdafiə nazirinin müvafiq əmrinə əsasən, sentyabrın 2-dən 18-dək Gürcüstanın Svanetiya rayonuna yollanan bir qrup hərbçi alpinistimiz müvəffəqiyyətlə geri dönüblər. Ekspedisiya zamanı qarşılaşdıqları çətinliklər və keçirdikləri hissləri öyrənmək məqsədi ilə idmançılarımızla həmsöhbət olduq.




- Yuxarı komandanlığın müvafiq əmrinə əsasən, Gürcüstan Respublikasının ərazisində yerləşən Kazbek (5054 m) və Uşba (4710 m) zirvələrini fəth etmək üçün "Azərbaycan Ordusu Hərbi Hava Qüvvələri" adlı beş nəfərlik ekspedisiya təşkil olundu, - deyə polkovnik-leytenant Zal Nəbiyev söhbətə başladı. - Azərbaycan Alpinizm Federasiyası psixoloji və fiziki dəstəyini bizdən əsirgəmədi. Azərbaycan Ordusundan iki zabit - polkovnik-leytenant Zal Nəbiyev, baş leytenant Ülvi Məmmədli, Azərbaycan Alpinizm Federasiyasından iki alpinist - Qərib Tağızadə, Firuz Dadaşov və bir nəfər həvəskar alpinist - Fərid Novruzi Gürcüstanın ikinci ən uca zirvəsini fəth etmək üçün yola düşdük. 16 günlük ekspedisiya zamanı hava şəraiti kəskin soyuq, marşrut isə çətin idi. Buna baxmayaraq, hər birimiz məqsədə doğru əzmkarlıqla irəlilədik. Azərbaycan Respublikasının və Azərbaycan Ordusunun bayraqlarını şərəflə Kazbek və Uşba zirvələrində dalğalandırdıq. Ekspedisiya zamanı anladım ki, dağlar, həqiqətən də əzəmətlidir və dağlar cəsurluğu sevmir. Çünki ani düşünülməz addım nəinki özünü, ətrafındakıları da çıxılmaz vəziyyətə sala bilər. Alpinizm yeganə idman növlərindəndir ki, burada insan özü-özünə qalib gəlir. Ekspedisiyanı təşkil etdiklərinə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığımı bildirirəm.

Söhbətimizə qoşulan baş leytenant Ülvi Məmmədli bildirdi ki, alpinizmdə üç cür hazırlıq vardır: ekspedisiyaya qabaqcadan hazırlıq, ekspedisiyaqabağı hazırlıq və ekspedisiyanın ümumi hazırlığı. “Ekspedisiyaya qabaqcadan hazırlıq zamanı ekspedisiyada iştirak edən təlimatçıların, tələbələrin və xilasedicilərin bütün təchizatları, nəzəri və praktiki bilikləri yoxlanılır. Ekspedisiyaqabağı hazırlıq zirvə yürüşünə və ya digər düşərgəyə yollanmazdan 40 dəqiqə əvvəl aparılır. Ekspedisiyanın ümumi hazırlığı ayda bir dəfə klub rəhbərləri və təlimatçılar tərəfindən konfrans şəklində keçirilir. Burada bütün səhvlər təhlil edilir. Bu zaman əvvəllər keçilən marşrutların bəzi tərəfləri təhlil olunur. Növbəti ekspedisiya zamanı bənzər səhvlərin təkrar olunmaması üçün lazımi tədbirlər görülür.”

- Ekspedisiyaya yollandıqdan sonra, ilk növbədə, yüksəklik adaptasiyası məqsədi ilə dəniz səviyyəsindən 5054 metr yüksəklikdə yerləşən Kazbek zirvəsinə qalxdıq, - baş leytenant Ülvi Məmmədli söhbətini davam etdirdi. - Kazbek zirvəsini fəth etdikdən sonra qarşıda daha çətin və ağır tapşırıq dayanırdı. Qafqazın ən təhlükəli və gözəl zirvələrindən biri olan Uşba zirvəsinə qalxmalı idik. Adaptasiya müddətindən sonra geri - Tbilisi şəhərinə yollandıq. Burada bizi üçgünlük 4100 metrlik yol gözləyirdi. İlk olaraq yolumuz meşə massivindən, sonra isə böyük çatlardan ibarət, həyat təhlükəsi ilə dolu buzlaqlardan keçdi. Bütün çətinliklərin öhdəsindən gələrək, zirvəyə doğru yola düşdük və üçrəngli bayrağımızı burada da dalğalandırdıq. Uşba zirvəsinin ətəyi buzlu olduğundan ənəndə çətin vəziyyətlə üzləşdik. İllərdir alpinizm ilə məşğul olmağıma baxmayaraq, təxminən 30 metr sürüşdüm. Köməyimə buza qoyulan dayaq yetişdi. Bir daha idmanın bu növündə təchizatın nə qədər önəmli olduğunu dərk etdim. Hər bir şəxs alpinizmə başlayanda ilk olaraq ləvazimatlara inamsız yanaşır. Özündən asılı olmayaraq təchizatların təhlükəsizliyini təmin edəcəyi şübhə altında olur. Ancaq təlimlər zamanı bu hiss keçir. Alpinizmlə məşğul olmağa başladığım vaxtdan instruktorumun sözləri heç vaxt yadımdan çıxmaz. O deyərdi ki, alpinist bir qoca olur, bir də cəsur. Cəsur alpinist isə qoca olmur. İllərdir dünyanın ən hündür zirvələrini fəth edərək bu cümlənin mənasını anladım. Başa düşdüm ki, dağlarda cəsurluqla deyil, ağıl və illərin təcrübəsinə əsaslanaraq hərəkət etməlisən. Bəzən düzünə bir metr yol qət etmək üçün on metr dolayı yolla getməyi seçməlisən. Alpinizmdə qazandığım təcrübə və biliklərimə görə təlimatçım Mixayl Zərbaylova, Rüfət Qocayevə, Firuz Dadaşova, Şamil Xuda minnətdarlığımı və təşəkkürümü bildirirəm.

Növbəti il üçün planlarından danışan zabitlər Z.Nəbiyev və Ü.Məmmədli bildirdilər ki, qarşıda onları Lenin (indiki İbn Sina zirvəsi), Pobeda, Kommunizm (indiki İsmayıl Samani zirvəsi), Korjenevskiy və Xan-Tenqri kimi zirvələr gözləyir. "2020-ci ildə ümummilli lider Heydər Əliyevin doğum günü münasibəti ilə Nepal Federativ Demokratik Respublikasının ərazisində yerləşən Himalay dağlarının 6000-7000 metrlik zirvələrini fəth etməyi, Azərbaycan Ordusunun yaranması ilə əlaqədar olaraq, Pamir dağ sistemində yerləşən Lenin zirvəsinə Lipkin marşrutu ilə getməyi planlaşdırırıq. Niyə məhz Lipkin marşrutu? sualı ortaya çıxa bilər. Lipkin SSRİ-nin ən güclü təyyarəçisi olub və həmin dağlarda qəzaya uğrayıb. Bu səbəbdən zirvəyə Lipkin marşrutu ilə qalxaraq, Razdelni marşrutu ilə geri qayıtmağı nəzərdə tutmuşuq."

- Azərbaycan Respublikasının üçrəngli bayrağını dalğalandırmaq, Dövlət himnini səsləndirmək, ordumuzun şan-şöhrətini bundan sonra da dünyaya yaymaq hər birimiz üçün müqəddəs və şərəfli vəzifədir, - polkovnik-leytenant Zal Nəbiyev sözünə davam etdi. - Bilirik ki, istənilən sahədə əldə etdiyimiz nailiyyətlər bizi qələbəyə daha da yaxınlaşdırır. İnanırıq ki, illərlə qazandığımız bilik və təcrübələrimizi tezliklə işğal altında olan torpaqlarımızı azad edəcəyimiz döyüşdə tətbiq edəcəyik."

**Baş leytenant Ruslan HƏSƏNZADƏ, "Azərbaycan Ordusu", fotolar çavuş Namiq PƏNAHOVUNDUR**



*Heç kim unudulmur*

# Əbdülməcid Axundovun anım mərasimi keçirildi

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində aprel şəhidi Əbdülməcid Axundovun anım mərasimi keçirildi.

Tədbirdə millət vəkilləri, ictimaiyyət nümayəndələri və kütləvi informasiya vasitələrinin əməkdaşları iştirak etdilər.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi mayor İlkin Qayıbov açaraq qeyd etdi ki, Əbdülməcid Axundov 1993-cü il oktyabrın 15-də Sumqayıt şəhərində anadan olub. "2010-cu ildə Sumqayıt şəhərində yerləşən 16 saylı tam orta məktəbi bitirən Əbdülməcid Axundov elə həmin il Azərbaycan Texniki Universitetinə daxil olub.

Əsgər Əbdülməcid Axundov 2016-cı ilin Aprel döyüşlərində qəhrəmancasına şəhid olub. Əbdülməcid Axundov ölümündən sonra göstərdiyi qəhrəmanlığa görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medalı ilə təltif edilib".

Mayor İlkin Qayıbov çıxışını Ali Baş Komandan İlham Əliyevin "Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək" kəlamı ilə bitirdi.

Millət vəkili Tahir Mirkişili vurğuladı ki, Aprel döyüşləri zamanı qüdrətli ordumuzun şəxsi heyəti qəhrəmanlıq göstərərək ermənilərin uydurduğu məğlubedilməz ordu mifini darmadağın etdi. Natiq qeyd etdi ki, qorxubilməz oğullarımız Ohanyan səddini bir neçə saat ərzində keçdilər. "Böyük Qələbə xəbəri və işğaldakı Qarabağımıza qovuşacağımız gün uzaqda deyil."

Şəhid Əbdülməcid Axundovun anası Ceyran Axundova çıxış edərək oğlu ilə bağlı xatirələrini bölüşdü və tədbirin təşkilatçılarına təşəkkürünü bildirdi. Qeyd etdi ki, Vətən üçün döyüşmək və şəhid olmaq Əbdülməcidin arzusu idi. O, öz arzusuna çatıb. Onun son arzusunu artıq dörd ildir ki, sizlər yerinə yetirirsiniz. Sağlığında təntənəli ad günü keçirmək ona nəsib olmasa da, bu gun sizin sayənizdə onun ruhu şaddır. Şəhidlər unudulanda ölürlər deyən şəhid anası, onlara göstərilən sevgi və diqqətə görə hər kəsə təşəkkürünü bildirdi.



Ehtiyatda olan polkovnik Xətai Baxışov, leytenant Günel Dadaşova, Hüseyn Həsənov, Elvin Əlizadə Aprel döyüşləri və Azərbaycan Ordusunun qazandığı uğurlardan danışaraq bildirdilər ki, şəhidlər heç vaxt ölmür və heç vaxt unudulmur. "Şəhid ailələri daim dövlətimiz tərəfindən xüsusi diqqət və qayğı ilə əhatələniblər. Bugünkü tədbir bir daha bunu təsdiq edir. Bizim güclü ordumuz var. Xalqımızın Böyük Qələbə müjdəsi ilə sevinəcəyi gün uzaqda deyil..."

Tədbirdə şəhidin şəxsi əşyaları, fotoları, xalça və rəsm əsəri, haqqında yazılan kitab sərgiləndi.

Anım tədbirində Nigar İsmayılqızının hazırladığı "Ölsəm… Yaşat" sənədli filmi nümayiş olundu.

Tədbir Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin vətənpərvər mahnıları ilə başa çatdı.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

*Vətənpərvərlik*

# "Qəhrəmanlar ölmür" adlı tədbir keçirildi

Bu günlərdə AMEA-nın Milli Azərbaycan Tarix Muzeyində "Qarabağ müharibəsi şəhidlərini tanıyaq" layihəsi çərçivəsində "Qəhrəmanlar ölmür" adlı tədbir keçirildi. Muzeyin Elmi-kütləvi iş və təhsil şöbəsi, Veteran Tankçılar Birliyi və Bakı şəhəri Suraxanı rayonu Bülbülə qəsəbəsi 140 saylı tam orta məktəbin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə Qarabağ müharibəsi veteranları, qaziləri, şəhid ailələri, məktəblilər, qurumun əməkdaşları və gənc alimlər iştirak etdilər. Tədbirin keçirilməsində əsas məqsəd Azərbaycanın Milli qəhrəmanlarının tanıdılması, onların keçdiyi döyüş yolu barədə ictimaiyyətə və gənc nəslə geniş, dolğun məlumatların çatdırılmasıdır.

"Qəhrəmanlar ölmür" adlı tədbir xalqımızın ümummilli lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başladı. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri giriş sözü ilə açan muzeyin elmi-fond işləri üzrə direktor müavini, dosent, tarix üzrə fəlsəfə doktoru Məhfuzə Zeynalova belə tədbirlərin gənc nəslin vətənpərvər ruhda böyüyüb formalaşmasında böyük əhəmiyyəti olduğunu vurğuladı. Muzeydə mütəmadi olaraq Azərbaycan sərkərdələrinə, hərbi şəxsiyyətlərinə, ata-babalarımızın şanlı döyüş yollarına və Qarabağ müharibəsi qəhrəmanlarına həsr olunmuş silsilə tədbirlərin keçirildiyini dedi.



Sonra muzeyin aparıcı elmi işçisi, dosent, tarix üzrə fəlsəfə doktoru Bəhram Kərimov "Qarabağ müharibəsi şəhidlərini tanıyaq" layihəsi çərçivəsində keçirilən tədbirlərdən qısa məlumat verərək bildirdi ki, muzeydə Bakı şəhər məktəbləri ilə birlikdə Milli qəhrəmanlarımız Rafiq Nəsrəddinov, Şahlar Şükürov, Mübariz İbrahimov, Samid İmanov, Murad Mirzəyev və başqalarının xatirə mərasimləri təşkil olunub. "Hər il aprel ayında Azərbaycan Ordusunun zəfər yürüşü olan 2016-cı ilin Aprel döyüşləri ilə bağlı həmin döyüşlərin iştirakçıları tələbə və məktəblilərlə birlikdə dəyirmi masalar, disputlar təşkil edirik. Bu layihə çərçivəsində Qarabağ müharibəsi qəhrəmanlarının şəxsi əşyaları toplanmışdır. Eyni zamanda, muzeyimizin əməkdaşları layihə çərçivəsində bölgələrimizdə mütəmadi olaraq tədbirlər də keçirir, Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan hərbçilərimizi təbliğ edirlər. Bu il Biləsuvar şəhər Mübariz İbrahimov adına lisey-məktəb kompleksində və Neftçala şəhər 1 saylı tam orta məktəbində Gənclər Fondunun dəstəyilə icra olunan "Milli qəhrəmanlarımızı tanıyaq və tanıdaq" layihəsi üzrə tədbir və inşa müsabiqəsi keçirilmişdir. Həmin proqram üzrə Milli qəhrəmanlar Mübariz İbrahimov və Samid İmanovun valideynləri, ailə üzvləri ilə görüşlər təşkil olunub. Milli Qəhrəman Samid İmanovun ailəsi tərəfindən onun hərbi geyim forması muzeyimizə təqdim edilib."

Veteran Tankçılar Birliyinin sədri ehtiyatda olan kapitan Hacı Əzimov Qarabağ müharibəsində keçdiyi döyüş yolundan danışaraq, xidmət etdiyi taborun Milli qəhrəmanları Şövqiyar Abdullayev, Albert Aqarunov və Əsəd Əhmədovun döyüşlərdə göstərdiyi əsgəri şücaət nümunələrindən söhbət açdı və onların həyat yolunun gənclərimizə örnək olduğunu dedi.

Qarabağ qaziləri Arif Nağıyev və Vitali Hüseynov Qarabağ müharibəsinin hələ bitmədiyini, Ali Baş Komandanın ətrafında sıx birləşərək, Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunan tarixi torpaqlarımızın azadlığı uğrunda müqəddəs döyüşlərə hər an hazır olduqlarını vurğuladılar.

Sonda tədbir iştirakçılarına "Birinci Səbail tank taboru" adlı sənədli film və məktəblilərin hazırladığı ədəbi-bədii proqram nümayiş olundu. Şəhidlərimizə, Vətənə, torpağa həsr edilən şeir və mahnılar səsləndirildi.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

*Bizim şərh*

# Paşinyanın vəd etdiyi "iqtisadi inqilab" yalnız onun və dostlarının həyatında öz əksini tapır

Ermənistanın baş naziri Nikol Paşinyanın vəzifəyə başlamasından il yarım keçsə də, onun çıxışında xüsusilə vurğuladığı iqtisadi inqilab gerçəkləşmədi, əksinə, hazırkı proseslər onun vəd etdiyi məcradan kənara çıxdı.

N.Paşinyanın keçən il parlamentdəki çoxluğun onu narahat etdiyinə dair özünə haqq qazandırmaq cəhdi də 2018-ci ilin dekabr seçkilərindən sonra iflasa uğradı.

Ermənistan hökuməti müxtəlif göstəricilərdə irəliləyiş olduğunu, bu il üçün 7 faiz iqtisadi artıma nail olduqlarını göstərməyə çalışsa da, bu artım əhalinin həyatında öz əksini tapmadı. Buna görə də erməni xalqı statistikaya şübhə ilə yanaşır və ölkənin iqtisadi artımının, sadəcə, göz oxşayan rəqəmlərdən başqa bir şey olmadığını anlayır. Xüsusilə, İrəvanda ən əsas narahatlıq yaradan amil yeni iş yerlərinin yaradılmamasıdır. Hökumət zaman-zaman yeni iş yerlərinin yaradılmasına dair bəzi məlumatlar verir, amma bu göstəricilər reallığı əks etdirmir. Real vəziyyət belədir ki, 2019-cu ildə Ermənistanda iş axtaranların yalnız 1 faizi iş tapa bilib. 46 faiz işsiz Ermənistanı tərk edib, təbii ki, buna səbəb vətəndaşların ölkədə iş tapa bilməməsidir.

Hökumət işçilərin müəyyən bir hissəsinin əmək haqqını bir qədər artırmaqla problemi həll edə bilmir, çünki əmək bazarının digər hissəsində eyni vaxtda "azaldılma və optimallaşdırılma" da mövcuddur. Məsələn, bir tərəfdən müəllimlərin maaşları bir az artırılsa da, digər tərəfdən internat məktəbləri bağlanır. Bunlar da işsizlərin sayını artırır. Maraqlıdır ki, iqtisadiyyata yeni təkan verəsi gözlənilən investisiyalar yoxdur.

Vəziyyət o qədər mürəkkəbdir ki, erməni diasporu üzrə ali komissar Zareh Sinanyan da son vaxtlar müsahibələrinin birində etiraf etmək məcburiyyətində qalıb: "İnvestisiyalar gözlənilən həcmdən aşağıdır və Ermənistanda sarsılmış inamı bərpa etmək üçün çox səy tələb olunur".

2019-cu ilin yanvar-avqust ayları üçün makroiqtisadi rəqəmlərin təhlili göstərir ki, iqtisadiyyatın çox cüzi şəkildə böyüməsi, əsasən, turizm, emal sənayesi, dağmədən məhsulları və avtomobil satışları hesabına baş vermişdir.

Turizm baxımından, Rusiyanın Gürcüstana uçuşları dayandırması, Ermənistana turist axınını nisbətən artırdı, lakin görülən bütün tədbirlərə baxmayaraq turizmin müsbət inkişafının davam etdiriləcəyinə zəmanət yoxdur. Digər tərəfdən, avtomobillərin idxalına dair rəqəmlərə etibar etməyə ehtiyac yoxdur və avtomobillərin idxalı gələn ilin yanvarında dayandırılacaqdır.

Emal sənayesində, mədən sənayesində qeydə alınan artım qalmaqdadır, bu, inqilabi dəyişiklikləri reallığa çevirmək üçün kifayət deyil. Beləliklə, mövcud çətinlikləri nəzərə alaraq, gələn il üçün Ermənistan iqtisadiyyatında böyük müsbət dəyişikliklərin olacağını gözləmək utopiyadan başqa bir şey deyil. Ələlxüsus, ölkə iqtisadiyyatında monopoliyanın hökm sürməsi və korrupsiya hallarının artması Paşinyanın bəhs etdiyi "iqtisadi inqilab"ın reallaşmayacağının bariz nümunəsidir. Eyni zamanda, ev təmiri, xarici səfərlərə yollanarkən şəxsi təyyarənin sifariş verilməsi, yeni zirehli maşının alınması, layihələrin əksəriyyətinin baş nazirin qızına verilməsi və nəşriyyat evinin rəhbəri olan dostuna maliyyə yardımlarının ayrılması kimi hallar ölkədə korrupsiyaya daha geniş şərait yaradır.

**Ehtiram AŞIRLI,**
**Analitik**

# MOİK-in idmançıları Hərbçilərin VII Dünya Oyunlarında iştirak edəcəklər

*Məmləkətimiz qədim idman ənənələrinə malik dövlətlərdən biridir. İdmanın inkişafı və qazanılan uğurlar ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər Heydər Əliyev gənc nəslin sağlam ruhda böyüməsinin vacibliyini dəfələrlə çıxışlarında vurğulayırdı. Azərbaycanın beynəlxalq turnirlərdə iştirak etmək hüququnun, habelə, Olimpiya hərəkatına qoşulma məsələsinin vacibliyini hiss edən Ulu Öndər idman sahəsində ciddi işlər gördü. Ölkə daxilində idmanın kütləviliyini təmin etmək, həmçinin ölkə idmanını daha geniş coğrafiyada əhatə etdirmək baxımından ciddi addımlar atıldı. Qısa müddətdə idman sahəsinə ayrılan diqqət hiss olunmağa başladı. Bunun nəticəsi idi ki, idmançılarımız müxtəlif turnirlərdə, habelə, Olimpiya Oyunlarında iştirak edərək yaxşı nəticələr əldə etdilər.*

Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səyi nəticəsində ölkəmizdə mötəbər idman turnirləri, yarışlar təşkil olunur. İdman ənənələrinin davamı olaraq idmançılarımız müxtəlif idman növləri üzrə ölkəmizi layiqincə təmsil edir, dünya arenalarında bayrağımızı ən yüksəkdə dalğalandırır, himnimizi səsləndirirlər. Gənclərimizin idmana olan marağı və göstərdiyi yüksək nailiyyətlər ölkəmizdə sağlam gənclik siyasətinin düzgün aparıldığının göstəricisidir.

Cəmiyyətin hər sahəsində olduğu kimi, Vətən müdafiəsində duran hərbi qulluqçularımız arasında da beynəlxalq idman yarışlarında ölkəmizi layiqincə təmsil edən idmançılarımız vardır. Müxtəlif idman növləri üzrə ordu birinciliyi yarışları keçirilir ki, bu da şəxsi heyətin fiziki hazırlığına və sağlamlığına müsbət təsir edir. Yeni tikilən hərbi hissələrdə idman şəhərciyi, trenajor zalları və s. şəxsi heyətin istifadəsinə verilir. Əminliklə deyə bilərik ki, şəxsi heyətin idmanla məşğul olmaları üçün ordumuzda yüksək şərait yaradılıb.



Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman Klubu (MOİK) hərbçilərin peşəkar səviyyədə idmanla məşğul olması üçün fəaliyyət göstərir. Klubun təcrübəli məşqçiləri tərəfindən hazırlanan hərbçi-idmançılarımız dünya arenasında müxtəlif uğurlar qazanırlar. Dünya və Avropa çempionatlarından qələbələrlə qayıdırlar. 1995-ci ildən CISM-in fəal üzvü olan MOİK Ümumdünya Hərbi İdman Oyunlarında və müxtəlif idman növləri üzrə yarışlarda ölkəmizi təmsil edir.

Mərkəzi Ordu İdman Klubunun idmançıları Çin Xalq Respublikasının Vuhan şəhərində keçiriləcək VII Dünya Hərb Oyunlarında iştirak edəcəklər. MOİK-in komandası oktyabrın 18-dən 28-dək Beynəlxalq Hərbi İdman Şurasının təşkil etdiyi (CISM) hərbçilərin olimpiadasında mübarizə aparacaq.

VII Dünya Hərb Oyunlarında ölkəmizdən 23 idmançı, 4 hakim, 4 məşqçi iştirak edəcək. Komandamızı sərbəst güləş, yunan-Roma güləşi, boks, cüdo, atıcılıq üzrə idmançılar təmsil edəcəklər. Sərbəst güləş üzrə Ağahüseyn Mustafayev (74 kq), Mahir Əmiraslanov (58 kq), Tatyana Varansova (53 kq) güclərini sınayacaqlar. Yunan-Roma güləşi üzrə 4 idmançı - Həsən Əliyev (77 kq), Rafiq Hüseynov (87 kq), Murad Bazarov (60 kq), Mikayıl Rəhmanov (67 kq), boks idmanı üzrə Tayfur Əliyev (56 kq), Səbuhi Abışov (69 kq), İsmayıl Yaqubov (91 kq) Salman Əlizadə (49 kq), Aynur Rzayeva (75 kq), Sərxan Əliyev (64 kq) mübarizə aparacaqlar. İdmanın cüdo növü üzrə İsmayıl İbrahimov (66kq), Hidayət Heydərov (81kq), Məmmədəli Mehdiyev (90 kq), Elmar Qasımov (100 kq), Tofiq Məmmədov (60 kq), atıcılıq üzrə Emin Cəfərov, Niyaz Ağazadə, Fuad Qurbanov, Nurlana Cəfərova və Regina Meftahətdinova mübarizə aparacaqlar.

İdmançılarımız polkovnik-leytenant Rəşad Quliyevin rəhbərliyi ilə yarışlara yollanıblar, növbəti dəfə dünya arenasında öz güclərini göstərib uğur qazanmaq niyyətindədirlər. Dünya Hərb Oyunlarında iştirak edəcək komandanın heyətində dünya və Avropa çempionları, Olimpiya Oyunlarının mükafatçıları, respublika və region üzrə yarışların qalibi olan idmançılar yer alıblar. Bundan əlavə güləşin yunan-Roma növü üzrə komandanın baş məşqçisi, beynəlxalq dərəcəli idman ustası, dördqat dünya çempionu, Avropa çempionu mayor Taleh İsrafilovdur. Əməkdar məşqçi, Olimpiya Oyunlarının qızıl medalçısı, hərbçilər arasında keçirilən dünya çempionatının qalibi mayor Nazim Əlicanov sərbəst güləş üzrə komandanın baş məşqçisidir. Cüdo üzrə komandamızın baş məşqçisi təcrübəli idmançı Rauf Vəliyevdir. Boksçularımıza Rauf Aydınov məşqçilik edəcək. Komandamızın tərkibində beynəlxalq dərəcəli hakimlər Faiq Kərimov, Anar Babanlı, Valeh Məhərrəmov, Elman İsmayılov da Vuhan şəhərinə yola düşüblər.



Cüdo üzrə komandanın baş məşqçisi Rauf Vəliyev təlim-məşqlərin yüksək səviyyədə keçdiyini dedi, yarışlarda iştirak edəcək 5 idmançının hər birindən yüksək nəticə gözlədiyini vurğuladı. Komandanın heyətində yüksək nailiyyətləri olan idmançılardan danışan Rauf müəllim Elmar Qasımovun 2016-cı ildə Olimpiya ikincisi olduğunu və 2009-cu ildə İrəvanda keçirilən Gənclərin Avropa Çempionatında qızıl medal qazandığını bildirdi.

Boks üzrə baş məşqçi Rauf Aydınov idmançıların yarışa tam hazır olduqlarını dedi, bu yarışlarda Azərbaycan Respublikasının Silahlı Qüvvələrini layiqincə təmsil edəcəklərini bildirdi. Komandanın üzvü Ruslan Rüstəmovla söhbətim zamanı öyrəndim ki, iki dəfə Avropa çempionu, dəfələrlə respublika üzrə yarışlarda yüksək nəticələr göstərmiş və 2016-cı ildə Avropanın ən texnikalı idmançısı seçilib. 11 dəfə Azərbaycan çempionu olan Tayfur Əliyev Avropa çempionatında qızıl mükafatçı olub.

Atıcılarımızdan Azərbaycanın ilk Olimpiya çempionu olan Zemfira Meftahətdinovanın qızı Regina 2008-ci ildən idmanın bu növü ilə məşğul olur, daxili və beynəlxalq yarışlarda müxtəlif uğurlar qazanıb. Onun komanda yoldaşı Fuad Qurbanov 10 ildir idmanın atıcılıq növüylə məşğuldu. Hər iki idmançı bildirdi ki, beynəlxalq turnirlərdə ölkəni layiqincə təmsil etmək üçün əllərindən gələni əsirgəməyəcəklər.

Beynəlxalq dərəcəli idman ustası, hərbçilər arasında keçirilən Avropa və Dünya birinciliklərinin 4 qat qalibi, yunan-Roma güləşi üzrə komandanın baş məşqçisi mayor Taleh İsrafilov komandasında dünya və Avropa çempionatlarının, respublika birinciliklərinin qaliblərinin olduğunu bildirdi və qeyd etdi ki, komanda layiqincə mübarizə aparacaq. Baş məşqçi T.İsrafilov dedi ki, mötəbər turnirlərdə iştirak edib, qalib gəlmək hər bir idmançı üçün qürurverici və əlamətdar hadisədir. Hər bir komandanın uğuru, ümumilikdə Azərbaycan Ordusunun uğurudur.

Sərbəst güləş üzrə məşqçi, əməkdar məşqçi Nazim Əlicanov komandanın Vətənə xoş əhval-ruhiyyədə dönəcəyinə ümidvar olduğunu dedi.

Ordu birinciliyi turnirinin oyunlarını idarə edən beynəlxalq dərəcəli hakimlərdən biri Elman İsmayılov da fikrini bizimlə bölüşdü. 2003-cü ildə Türkiyədə, 2007-ci ildə Hindistanda, 2015-ci ildə Cənubi Koreyada keçirilən hərbi yarışlarda iştirak etmişəm. Burada keçirilən turnir heç də onlardan geri qalmır."

**Baş leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə ordusu Suriyada iki şəhid verib



Türkiyə Silahlı Qüvvələrinin Suriya ərazisində antiterror əməliyyatı aparan qoşun birləşmələrində təmsil olunan hərbçilərdən ikisi şəhid olub, yeddisi yaralanıb.

Türkiyə Müdafiə Nazirliyi xəbər verir ki, Münbiç bölgəsində baş verən hadisə terrorçuların türk hərbçilərini toplardan və raketlərdən atəşə tutması nəticəsində baş verib. Nazirlik şəhidlərin ailələrinə başsağlığı verib.

## ABŞ ordusu 2023-cü ilə qədər səsdən iti raketləri istifadəyə veriləcək



ABŞ ordusu 2023-cü ilə qədər səsdən iti uzaq mənzilli raketlər sisteminin istifadəyə verilməsini planlaşdırır.

ABŞ ordusunun səsdən iti raketlər proqramının direktor müavini Robert Strayder bu məlumatı ABŞ quru qoşunları hərbi qulluqçuları assosiasiyasının nümayəndələrinin illik qurultayındakı məruzəsində səsləndirib. Strayder bildirib ki, döyüş qabiliyyətli eksperimental prototip 2023-cü ilə qədər istifadəyə veriləcək.

Strayder daha sonra əlavə edib ki, mobil yerüstü platformadan buraxılmış 8 raketdən ibarət batareyanın sürəti saatda 3800 milə (6116 kilometr) bərabər olacaq.

Səsdən iti raketlər Yer atmosferinin yuxarı təbəqəsinə çataraq hava hücumundan müdafiə və raketdənmüdafiə sistemlərinə zərbə endirməyə hazır olana qədər həmin sistemlərin təsir zonası hüdudlarında qala biləcəklər. Raketin dizaynı dəqiqlik, sürət, zərbəyə davamlılıq və manevr qabiliyyəti kimi parametrlərə hesablanıb. ABŞ quru qoşunları hərbi qulluqçuları assosiasiyasının məlumatına görə, bu raketlər bir neçə dəqiqə ərzində Yer kürəsinin istənilən nöqtəsində zərbə endirə biləcəklər.

## İran yeni reaktiv təyyarəsini təqdim edib



İranın İsfahan şəhərindəki hərbi bazada "Yasin" tipli yeni reaktiv təyyarənin təqdimatı olub.

Tamamilə İran istehsalı olan yeni təyyarənin çəkisi 5,5 tondur. Qırıcı təyyarə radarlardan yayınmaq üçün xüsusi texnologiya ilə də təchiz olunub.

Təqdimatda İranın Müdafiə naziri general Əmir Hatəmi və digər yüksək rütbəli generallar iştirak ediblər.

## Konqoda An-72 təyyarəsinin qəzaya uğradığı yerdə dörd cəsəd aşkarlanıb



Mütəxəssislər Konqo Demokratik Respublikasında An-72 hərbi yük təyyarəsinin qəzaya uğradığı yerdə dörd nəfərin cəsədini aşkarlayıblar.

Bu barədə ölkə prezidentinin dəftərxanası məlumat yayıb. Təyyarənin qalıqları Sankuru əyalətinin Kole şəhəri yaxınlığında tapılıb. Məlumata görə, pilot kabinəsinin aşkarlanması aviasiya qəzasının təhqiqatını sürətləndirə bilər.

Xatırladaq ki, Konqo Demokratik Respublikasının Prezidenti Feliks Çisekediyə xidmət edən və göyərtəsində səkkiz nəfərin olduğu An-72 tipli hərbi yük təyyarəsi ölkənin şərqində qəzaya uğrayıb. Oktyabrın 10-da yerli vaxtla saat 13:32-də Goma şəhər aeroportundan havaya qalxan təyyarə saat 16:43-də Kinşasada yerə enməli idi. Lakin bir saatdan sonra təyyarə ilə əlaqə kəsilib və o, radarlardan itib.

İnsident zamanı təyyarənin göyərtəsində prezidentin mühafizə xidmətinin üç əməkdaşı, onun şəxsi sürücüsü və dörd ekipaj üzvü, o cümlədən iki rusiyalı pilot olub.

**AZƏRTAC-ın materialları əsasında**

## Dənizi hədiyyə verirəm sənə

- Dənizi hədiyyə verirəm sənə…
Mən dedim, sən baxdın, sən gülümsədin.
Göylərin şəfəqi düşdü üzünə.
- Mən isə… göyləri verirəm, - dedin…

Ayrıldıq qəribə hədiyyələrlə,
Göylər eşqim kimi mənə əzizdir.
Ayrıldıq dənizlə, ağ ləpələrlə,
Necə aparasan? Dəniz dənizdir.

Dənizi verdim ki, sənə hədiyyə,
Gəldiyim sahilə gələsən bir də.
Məni görməyəndə o mənəm - deyə,
Mənimlə danışıb, güləsən bir də.

- Əgər görüşməsək, bizə dağ olar,
Dedim, neçə dəfə belə dedim mən.
Dəniz sahilinə qayıtmaq olar,
Göylərin sahili varmı, gedim mən?!

Düşündüm, ayrıldıq gələndən bəri,
Sən mənim eşqimə çıraq olasan.
Onunçün verdinmi mənə göyləri,
Məndən göylər qədər uzaq olasan?!

II

Mən bir dənizəm ki, eşqim səhərdir,
Səni düşünürəm, əzizim, yenə.
Mənim dalğalarım xatirələrdir,
Qoy çatsın qəlbinin sahillərinə.

Əsl məhəbbət ki, böyük hünərdir,
Coşar ümman kimi təzə arzular.
Mənim dalğalarım xatirələrdir,
Orda tufan da var, burulğan da var.

Dənizəm, eşqimdən qaçmaq hədərdir,
Mən ki, adlayıram çölü, çəməni.
Mənim dalğalarım, xatirələrdir,
Gecə də, gündüz də tapacaq səni.

III

İstəsən yuxuna gələrəm sənin,
gələrəm dəniz kimi.
Üzünə incilər çilərəm sənin,
çilərəm dəniz kimi.
Yoluna şəfəqlər səpərəm hərdən
səpərəm dəniz kimi.
İstəsən üzündən öpərəm hərdən,
öpərəm dəniz kimi.
Adını qəlbinin sahillərinə
yazaram dəniz kimi,
"Sevirəm" söyləsən bir axşam mənə,
Susaram dəniz kimi,
Susaram dəniz kimi.

IV

Dünyada sakitlik aramadım mən,
Günəş kimi parla, səhər kimi gəl.
Göylərtək yuxuma gəlmək istəsən,
Sən aylı, ulduzlu göylər kimi gəl.

Adla qucağından gur tufanların,
Mən baxım axşamdan səhərə kimi.
Adla ağ yoluyla kəhkaşanların,
Parlasın hər ulduz xatirə kimi.

Gəl, qış gecəsində, yaz səhərində,
Dənizi göylərdən ayırmaq olmaz!
Sonsuz kainatın üfüqlərində,
Sən görüş vaxtını şimşəklərlə yaz!

Mən gərək nəğmətək səni dinləyəm,
Sən mənim eşqimlə, ürəyimləsən.
Nə qədər göylər var, mən səninləyəm,
Nə qədər dəniz var, sən mənimləsən.

## İkilikdə

Gəl bölək dünyanı ikilikdə biz
Dərə mənə düşsün, dağı sən götür.
Qalsın yer üzündə qoşa izimiz
Qara mənə düşsün, ağı sən götür.

*Könlüm şeir istəyir*

# "Dənizi hədiyyə verirəm sənə"

*Xalq şairi Nəbi Xəzrinin şeirlərində insan obrazı var. Şair bu obrazla cəmiyyət, təbiət haqqında düşüncələrini verir, təbiət gözəlliklərini sözlə ifadə edir, bütün duyğuların ən həssasını - sevgini yaşantılara Dan Ulduzu bilir. "Dənizi hədiyyə verirəm sənə" şeirində bədii təsvir vasitələri poetik heyrət səviyyəsindədir və şairin bu təşbehi sevginin qüdrəti kimi dərk edilir...*

*Nəbi Xəzrinin "Günəşin bacısı" və "Ana" poemaları Azərbaycan ədəbiyyatında yaddaqalan, yaşayacaq əsərlər sırasındadır.*

**"Azərbaycan Ordusu"**

İlin övladıyıq yayla qış kimi
Fəsillər yaşasın yanaşı məndə
Birgə bir yerdəyik gözlə qaş kimi
Gözlər səndə qalsın, göz yaşı məndə.

Gündüzü, gecəni əziz saxlayaq
Günəş sənə düşsün, Ay mənə qalsın
Coşqun sellər kimi birgə çağlayaq
Dəniz sənin olsun, çay mənə qalsın.

Bizik bu dünyada səninlə şərik
Bizsiz nə qış gülər, nədəki bahar
Həyatda hər şeyi bölə bilərik
Amma bölünməyən bir sevgimiz var...

## Ay ürək

Yaralar qövr edir təzədən, ürək,
Niyə könül verdin ona sən, ürək,
O səni sevmədi, sən niyə sevdin!
Səni sevməyəni sən niyə sevdin!

Eşqinə mən qurban gedim, ay ürək,
Dedim, neçə dəfə dedim, ay ürək,
Sevməyir o səni, niyə sevirsən,
Səni sevməyəni niyə sevirsən,

Sözümə baxmadın, indi yan, ürək,
Yan, ey mənim tək peşman ürək,
Sevmirdi o səni, niyə sevirdin!
Səni sevməyəni niyə sevirdin!..

## İstə

Öz məğrur eşqimdə təmənnasızam,
Bir damla istəsəm, bir ümman istə.
Mən ki, bir dünyalıq boranam, yazam,
Bircə gül istəsəm, gülüstan istə.

Mənə ulduz boyda işıq ver desəm,
Sən məndən Günəşli asiman istə.
Haçan bir saatlıq görüş istəsəm,
Sən bütün ömrümü, ərmağan istə.

## Söylə, bəs hardaydın?

Sən gəldin, zülmətdən gün çıxdı birdən,
Nə qədər ecazkar göründü cahan?
Səni gözləmişdim ömrüm boyu mən,
Söylə, bəs hardaydın sən bu vaxtacan?

Keçib göy dərəni, yaşıl çəməni,
Elə yaxın gəldin, elə uzaqdan!
Bəlkə min il əvvəl görmüşdüm səni,
Sərin su içəndə sən buz bulaqdan!

Elə bil üzləşdim ilahi sirlə,
Bu nə möcüzədir, bu nə heyrətdir?!
Məhəbbət ölçülmür illə, əsrlə,
Məhəbbət ölçüsü əbədiyyətdir.

Zöhrə ulduzu tək yanıb obaşdan,
Üfüqlər aşırdın xəyallarımda.
Sən hələ dünyaya göz açmamışdan,
Küsüb-barışırdın xəyallarımda.

Sən gəldin ömrümün qarlı qışında,
Ruhumda ehtiras, ürəyimdə qəm.
Cənnət qapısının elçi daşında,
Hazırdım min il də səni gözləyəm.

O nəydi? Zülmətdən gün çıxdı birdən,
Nə qədər ecazkar göründü cahan!
Səni axtarırdım ömrüm boyu mən,
Söylə bəs hardaydın sən bu vaxtacan?

## Şeir mənim üçün bir kainatdır

Şeir mənim üçün bir kainatdır,
Onun ulduzları, Günəşləri var.
Şeir mənim üçün sirli həyatdır,
Onun öz sevinci, öz kədəri var.

Şeir də yaşayır öz baharıyla,
Ona yol da verir sonsuz asiman.
O keçir təbii addımlarıyla,
Süni peyklərin aşdığı yoldan.

Keçir addım-addım kənddən, şəhərdən,
Ulduzlar üstünün naxışı kimi.
O keçir başına yağsa da hərdən,
Tənqidlər meteor yağışı kimi.

Sözüm də gücünü ellərdən alıb,
Qoy uçsun göylərə, o, birnəfəsə.
Qalın qatlardakı yanan peyk olub,
Nə qəm, neçə şeirim geri dönməsə.

Nə qədər qol-qanad, açsa da ilham,
Mən ana torpağın sinəsindəyəm.
Nə qədər göylərə uçsa da ilham,
Mən yerin cazibə qüvvəsindəyəm.

Yenə düşüncələr aparır məni,
Deyirəm: susmaram boran-qar olsun.
Gəzirəm sevdiyim ana Vətəni,
Misralar gəzirəm, misralar olsun.

Şeirə vurulduğum, de, aymı, ilmi?
Qəlbim arzularda, diləklərdədir.
Ən böyük kainat sənət deyilmi,
Sənət kainatı ürəklərdədir.

Hər kəs xoşbəxt olar öz diyarında,
Əzizdir əzəldən öz yerim dedim.
Kaş xalq ürəyinin fəzalarında,
Dünyalar dolaşa bir şeirim dedim.

Baxıram göylərə qəlbimdə şeir,
Ulduzlar uzaqdan göz vurur mənə.
Kainat sirrini açsa da bir-bir,
Sənət kainatı sirlidir yenə.

Bəli, şeir mənə bir kainatdır,
Sözlü, soraqlıdır bir kitab kimi.
Bəli, şeir mənə sirli həyatdır,
Açsam da, bağlıdır bir kitab kimi.

# İdman

## Azərbaycan cüdoçuları dünya çempionatının ilk günündə iki medal qazanıblar



Azərbaycan cüdoçuları Mərakeşdə keçirilən gənclər arasında dünya çempionatının ilk günündə iki medal qazanıblar.

Çempionatda 60 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançımız Əhməd Yusifov uğurla çıxış edərək finala vəsiqə qazanıb. Finalda rusiyalı Konstantin Simeonidis ilə qarşılaşan cüdoçumuz rəqibinə məğlub olaraq gümüş medalla kifayətlənib.

Digər cüdoçumuz İbrahim Əliyev (66 kiloqram) isə bürünc medal uğrunda mübarizə aparıb. Üçüncü yer uğrunda görüşdə rumıniyalı Lusian Bors Dumitresku ilə üz-üzə gələn İ.Əliyev rəqibinə qalib gələrək fəxri kürsünün üçüncü pilləsində yer alıb.

Dünya çempionatında Azərbaycanı 9 kişi və 2 qadın olmaqla ümumilikdə 11 cüdoçu təmsil edir. Yarışda 81 ölkədən 500-dən çox tatami ustası mübarizə aparır.

## Güləşçilərimiz birinci Dünya Çimərlik Oyunlarını iki medalla başa vurublar



Oktyabrın 15-də Qətərin paytaxtı Dohada ilk Dünya Çimərlik Oyunları çərçivəsində keçirilən çimərlik güləşi üzrə yarışa yekun vurulub.

Təmsilçimiz İbrahim Yusubov (80 kq) A qrupunda rumıniyalı Vasile Madalin Minzala (3:1), ispan David Kintana (3:0) və çilili Antonio Kastroya (3:0) qalib gəlib, gürcü Davit Xutsişviliylə görüşdə isə hesab açılmayıb. Gürcüstan təmsilçisinin çəkisi daha az olduğundan qələbə rəqibə verilib. Bununla belə, yarımfinala vəsiqə qazanan İ.Yusubov ukraynalı Vasili Mixaylovu 3:1 hesabı ilə üstələyərək finala yüksəlib. Həlledici görüşdə yenidən gürcü güləşçi üz-üzə gələn təmsilçimiz bu dəfə də məğlub olaraq gümüş medalı boynundan asıb.

## Parapauerliftinq üzrə açıq respublika çempionatında 30-dan çox idmançı yarışacaq




Parapauerliftinq idmanı üzrə açıq respublika çempionatı keçiriləcək.

Yarış oktyabrın 20-də Xırdalandakı "Zirvə" beynəlxalq idman klubunda baş tutacaq. Çempionatda Gəncə, Naxçıvan, Şamaxı, İsmayıllı, Sumqayıt və Bakıdan 30-dan çox idmançı yarışacaq. Dörd idmançı isə Gürcüstandan yarışa qatılacaq.

## Azərbaycanın uşu üzrə milli komandası Çinə yollanıb



Oktyabrın 16-da Azərbaycanın uşu üzrə milli komandası Çinin Şanxay şəhərində keçiriləcək uşu üzrə XV dünya çempionatına yollanıb.

Oktyabrın 19-23-də baş tutacaq çempionatda ölkəmizi Avropa çempionu, IV İslam Həmrəyliyi Oyunlarının bürünc və dünya çempionatının gümüş medal mükafatçısı Orxan Hətəmov (48 kq), dördqat Avropa çempionu, İslam Həmrəyliyi Oyunlarının mükafatçısı Elçin Eminov (56 kq) və İslam Həmrəyliyi Oyunlarının bürünc və gümüş medalçısı Ruslan Pirəliyev (65kq) təmsil edəcəklər. Uşu üzrə yığma komandamız dünya çempionatına federasiyanın prezidenti və baş məşqçisi Azər Həsənsoyun və böyük məşqçi Baharətdin Səlimovun rəhbərliyi altında çıxış edəcəklər.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Mahmud MÖHBALIYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 618
Nüsxə 3950